# İLHAM ƏLİYEV-MULTİKULTURALİZM İDEYASI VƏ KİTABXANALAR

**ƏLİZADƏ H.Ə.**
***BDU, Kitabxanaşünaslıq kafedrasının dissertantı***
***habibalizade.91@gmail.com***

*Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeritdiyi multikulturalizm siyasəti və bu sahədə kitabxanaların üzərinə düşən vəzifələrdən bəhs edilir.*

***Açar sözlər:*** *multikulturalizm, Azərbaycan multikulturalizmi, kitabxana mühiti*

**Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək, bu prosesə mühüm töhfələr verib.**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycan mədəniyyəti xalqımızın tarixi qədər qədim və zəngindir. Xalqımız özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir və onu qoruyub olduğu kimi gələcək nəsillərə ötürməyi özünü borclu hesab edir. Azərbaycan çoxmillətli, çoxdinli bir ölkədir. Ölkədə təxminən 20-dən artıq azsaylı xalqların nümayəndələri, müxtəlif dinlərin daşıyıcıları yaşayır. Bunlar həm də müxtəlif sivilizasiyaların Azərbaycanda mövcud olduğunu göstərir. Tarix göstərir ki, bütün dövrlərdə xalqımız həm öz dinindən kənar olan insanları, həm də müxtəlif millətlərin nümayəndələrini həmişə hörmətlə qarşılayıb. Mövcud milli-mədəni müxtəliflik və etnik dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Bu səbəbdən Azərbaycanda millətlərarası, dinlərarası tolerantlığın olduğunu söyləmək olar. Ölkədə azsaylı xalqların milli mədəniyyətinin inkişafına şərait yaradılmışdır. Millətin öz varlığını qorumasının yollarından biri onun dilinin, mədəniyyətinin qorunub saxlanılmasıdır ki, bu da Azərbaycan dövləti tərəfindən təmin olunur. Bu gün dünyanın bir nömrəli problemi məhz tolerantlığın, qarşılıqlı hörmətin, mədəniyyətlərarası dialoqun olmamasıdır. Bu gün dünyada gedən proseslər onu göstərir ki, sivilizasiyanın bünövrəsini təşkil edən, millətlərarası münasibətlərə çox ciddi təsir göstərən qarşılıqlı hörmət anlayışı, tole-

rantlıq anlayışı aradan götürülüb. Həm dünyada baş verən bu kimi hadisələr nöqteyi-nəzərindən, həm də bu il ərzində Bakıda bir neçə mötəbər tədbirin, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçiriləcəyini bildirən prezident İlham Əliyevin, ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq, 2016-cı ili "Multikulturalizm" ili elan etməsi bu proseslərə bir cavabdır. Multikulturalizm ilinin elan olunması həm Azərbaycanda insanların, millətlərin, konfessiyaların birgə yaşaması üçün ən əsas düsturdur, həm də Azərbaycanın regionda rolunu müəyyən edən bir faktordur. "Multikulturalizm ili" Azərbaycanın dünyadakı mədəniyyətlər və sivilizasiyalararası dialoqa töhfəsi ilə yanaşı, dünyadakı sülh və əməkdaşlığa həm dövlət başçısının, həm də xalqın milli iradəsinin ifadəsidir. Multikulturalizm ilində ölkəmizdə yaşayan azsaylı xalqların, toplumların dillərinin, adət-ənənələrinin, mədəniyyət nümunələrinin qorunması strateji istiqamət kimi müəyyən edilmişdir. Bu il maarifləndirmə məsələsinə üstünlük verilməsi, multikulturalizm, tolerantlıq anlayışının düzgün qəbul olunması üçün tədbirlərin keçirilməsi bir məqsəd kimi qarşıya qoyulmuşdur. Tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanılması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların ge-rçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Multikulturalizmin əsasında müxtəlif millətlərdən olan insanların hər bir şəxsiyyətə hörmət qoyaraq, qanunlara əməl edərək birgə yaşaması ideyası dayanır. Amma bu zaman mədəni, dini, dil, etnik və digər xüsusiyyətlərə zərər dəyməməlidir. Əsl multikulturalizmin hökm sürdüyü cəmiyyətə nail olmağın alətləri də gözəl və dəqiqdir – tolerantlıq, qanunlara, bir-birinin azadlığına hörmət. Prezident İlham Əliyevin sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması isə ölkəmizin tolerantlıq prinsiplərinə dönmədən sadiq qalmasının bariz nümu-nəsinə çevrildi. Multikulturalizm ayrıseçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Bu gün mədəni, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir. Mövcud mul-tikultural mühit, tolerantlıq dünyanın bir çox dövlətlərinin diqqətini cəlb edib. Dünyadakı din xadimləri Azərbaycandakı mövcud vəziyyəti yüksək qiymətləndirirlər. Hazırda Azərbaycan Respublikasının multikulturalizm siyasəti sahəsində əldə etdiyi nailiyyətlər onun beynəlxalq münasibətlər sistemində uğurlu xarici siyasət fəaliyyətinin əsas səbəblərindən biridir. Bunun məntiqi nəticəsi kimi Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Artıq dünyada "Azərbaycan multikulturalizmi", "Multikulturalizmin Azərbaycan modeli" terminləri geniş istifadə olunur. Avropanın bir sıra universitetlərində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir. Bu fənn təkcə Azərbaycan multikulturalizminin təbliği ilə deyil, eyni zamanda dünyada, xüsusən də Avropa ölkələrində olan multikultural ənənələrin müqayisəli şəkildə öyrənilməsi ilə bağlıdır. Bu, Azərbaycan dövlətinin son illərdə əldə etdiyi nailiyyətlərdən biridir. Prezident İlham Əliyev ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili"nin elan edilməsi ilə bağlı müxtəlif dövlət qurumlarının qarşısına ciddi vəzifələr qoyulduğunu vurğulayıb. Qloballaşma, sürətli məlumat mübadiləsi, məlumatın ötürülməsinin asanlaşması və XXI əsrdə gerçəkləşən digər proseslər bir çox ölkələrdə mədəniyyət fərqini daha da artırmışdır. Bu səbəbdən kitabxanaların mədəniyyətinə, dilinə və dininə baxmadan cəmiyyətin bütün üzvlərinə xidmət etməsi, cəmiyyətin ehtiyacını qarşılayaraq bilik mənbəyi kimi çıxış etməsi onların üzərinə düşən əsas vəzifələrdən biridir. Multikulturalizm qavramının Qərb ölkələrində həyata keçməsini məcburi hala gətirən texnoloji və sosial proseslər, son zamanlarda Azərbaycanda da eyni ciddiyyətlə ələ alınması gərəkən mövzulardır.

Dünyada gedərək sürətini artıran texnoloji və sosial inkişaf bütün cəmiyyət qurumlarına, o cümlədən kitabxanalara birbaşa təsirini göstərməkdədir. Kitabxanalar ənənəvi xidmətlərlə yanaşı, cəmiyyətdə ehtiyac duyulan yeni xidmət sahələrinə cavab verə bildikləri müddətcə bilik mənbəyi olaraq qalacaqlar. Cəmiyyətə xidmət göstərən hər bir qurum inkişaf və dəyişimə uyğunlaşdığı zaman var olacaqdır. Multikulturalizm qavramından qaynaqlanan fərqli mədəniyyət qruplarına istiqamətlənmiş kitabxana xidməti də bu mənada dövr və mühitə uyğunlaşmalıdır. Kitabxanaların və digər mədəniyyət müəssisələrinin insanların ünsiyyətində və daha sağlam bir cəmiyyətin ortaya çıxmasında vacib rollarının olması danılmazdır. Mövcud mədəni irsin gələcək nəsillərə ötürülməsində kitabxanaların yeri böyükdür. Bu onların yalnız vəzifəsi deyil, uzun müddət varlıqlarını qoruya bilmələrinin sığortasıdır. Xüsusilə uşaqlar və gənclərə yönəlmiş xidmətləri bu mövzuda daha vacib yer tutur. Mədəniyyət baxımından getdikcə fərqliləşən bir cəmiyyətin ehtiyaclarını qarşılamaq kitabxanalar üçün həm bir təhlükə, həm də fürsət qaynağıdır. Bu vəziyyət isə kitabxanaların mövcud quruluşlarında vacib dəyişiklikləri gündəmə gətirir. Mövzu ilə əlaqədar kitabxanaların üzərinə düşən rol üçün öz planlarını yenidən gözdən keçirmək gərəkdir. Multikulturalizm və onun ədəbiyyata yeni anlayış kimi daxil olması müasir dövr üçün çox aktualdır, belə ki, o, bütövlükdə mədəniyyətə baxışı dəyişir. Mədəniyyət bütün sahələrdə bizim dünyaya baxışımızı müəyyənləşdirir, bizim verdiyimiz qərarlara və hərəkətlərə təsir edir. Kitabxana xidmətlərinin quruluşuna "Multikulturalizm" anlayışı da qatılmışdır. Ölkə xaricindən qaynaqlanan mədəniyyət fərqləri ilə yanaşı, ölkə içindəki

fərqli qruplar arasındakı problemlərin də qarşılıqlı anlayışa əsasən həll olunması, Qərb ölkələrindən başlayaraq fərqli ölkələrdə, həmçinin Azərbaycanda kitabxana xidmətlərinə öz təsirini göstərmişdir. Kitabxanalarda multikulturalizm ideyalarının təbliğatını daha da effektli metodlarla reallaşdırmaq işində 2016-2017-ci illərdə müştərək hazırlanan elmi ədəbiyyatların, yaxud digər köməkçi vəsaitlərin - "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları", "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları", nəhayət, "Azərbaycan multikulturalizmi" kitablarının müstəsna əhəmiyyəti vardır və bu kitabların ali məktəblərdə tədris prosesinə cəlb edilməkdədir. Kitabxana əməkdaşları çalışmalıdır ki, bu sahəni tədris edən kadr heyəti ilk növbədə ölkədə yaşayan milli azlıq, azsaylı xalq və etnik azlıqlar – onların tarixi, təsərrüfatı, məişəti, yaşadıqları coğrafi ərazi, təhsili, mediası, ölkənin ictimai-siyası həyatındakı rolları və ən nəhayət, beynəlxalq sənədləri və təcrübə barədə məlumatlı olsunlar. Məlumatın əldə olunmasını asanlaşdırmaq, ehtiyac duyulan xidməti vermək, fərqli mədəniyyətləri təbliğə yönəlmiş tədbirləri dəstəkləmək və s. multikultural ölkələrdəki kitabxanalardan gözlənilən funksiyalardan yalnız bir neçəsidir. Kitabxanalarda ulu öndər Heydər Əliyevin multikulturalizm dəyərlərinin daimi əsaslarının əsas bazasını təşkil edən "Azərbaycançılıq fəlsəfi konsepsiyası" haqqında kitab sərgilərinin keçirilməsinə, bu konsepsiyanın xalqımızın milli ideologiyası kimi öyrənilməsinə ciddi diqqət yetirilməlidir. Kitabxanalarda həmçinin oxucu konfransları, tematik görüşlər, müşavirələr, məruzələr və yeni kitabların təqdimatının keçirilməsi əvvəlcədən hazırlanmış tematik plan əsasında həyata keçirilməkdədir.

İnformasiya cəmiyyəti şəraitində multikulturlizmin təbliğində elektron vasitələrdən istifadə də mühüm əhəmiyyət kəsb edir. Elektron vasitələrdən istifadə prosesinin məqsədyönlü və mərkəzləşdirilmiş şəkildə aparılması oxucu suallarına, sorğularına, tələbatlarına daha səmərəli xidmət göstərilməsinə şərait yaradar. Mərkəzləşmiş elektron xidmət məqsədilə multikulturalizmə aid elektron kitabxanalar, elektron kataloqlar, elektron kartotekalar Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində, M.F.Axundov adına Milli Kitabxanada, respublika əhəmiyyətli digər kitabxanalarda, Mərkəzləşmiş Kitabxana Sistemlərində yaradıla bilər. Elektron vasitələrin internetə qoyulması multikulturalizmə dair ədəbiyyatın təbliğinin, kitabxana-informasiya təminatının yaxşılaşdırılmasına, oxucu fəallığının artırılmasına, oxucuların vaxtlarına qənaət edilməsinə müsbət təsir göstərə bilər.

Kitabxanalar multikultural bir cəmiyyətdə körpü vəzifəsini yerinə yetirirlər. Mədəniyyətlərin və sivilizasiyaların dialoqunun təşkilində kitabxanaların da üzərinə çox böyük yük düşür. Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini linqvistik müxtəlifliyin qorunmasını təmin





etmək, multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycanda mövcud olan multikultural ənənələri, habelə bölgələrə aid mədəni irsi, onların bir-birinə təmas dərəcəsini öyrənmək təbliğ etmək 2016-cı ildən sonrakı illərdə əsas məqsədlərdən biri oldu. Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər.

Ümumilli lider Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etmiş oldu. Ulu öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu gün dünya üçün multikultural dəyərlər nə qədər yeni olsa da, Azərbaycan bu dəyərlər sistemi, yəni eyni bir ölkədə yaşayan müxtəlif xalqların mədəni hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə min illərdir bəşəriyyətə nümunə göstərir. Dövlət səviyyəsində aktiv tərzdə həyata keçirilən multikulturalizm siyasətinin təbliği, Azərbaycanı dünya miqyasında multimədəni dəyərləri çox yüksək təşəkküllü vasitələrlə qoruyan və inkişaf etdirən tolerantlıq nümunəsi, Azərbaycan xalqını isə bu mədəni siyasəti əsl həyat tərzinə çevirmiş unikal etnos kimi tanıtmışdır. Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxana və Cəmiyyət: Monoqrafiya.-Bakı: "Azərnəşr",2011.-348s.*

2. *Xələfov A.A. Kitabxanaşünaslığın tarixi və metodologiyası. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014.-552s*

3. *Xələfov A.A. Kitabxanalarda milli ideologiyanın və dövlətçiliyin təbliği problemləri // Kitabxanaşünslıq və informasiya.- №.1.- S.3-26.*

4. *Xələfov A.A. Multikulturalizm dəyərlərinin kitabxana-informasiya məkanında təbliği problemləri // Respublika.- 2016.- 25 sentyabr.- S.4.*

5. *Cəfərov N. Azərbaycanşünaslığın əsasları. — Bakı: Pedaqogika, 2005. — 256 səh.*

6. Abdullayev K.M. *Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək... // Multikulturalizm.- 2016.- № 1.- S. 37-43.*

7. *Azərbaycanda multikulturalizm: biblioqrafiya / layih.rəhb. Ə.Qarayev; elmi red. K.Abdullayev; ixt. red. və burax. məsul K.Tahirov; rəy.: E.Nəcəfov, A.Məmmədov; red. G.Səfərəliyeva.- Bakı, 2016.- 504 s.*

## ИЛЬХАМ АЛИЕВ: ИДЕЯ МУЛЬТИКУЛЬТУРАЛИЗМА И БИБЛИОТЕКИ

АЛИЗАДЕ Г.А.

***РЕЗЮМЕ***

*В статье рассматривается политика мультикультурализма проводимая Президентом Азербайджанской Республики Ильхамом Алиевым и обязанности библиотек в этой области.*

***Ключевые слова:*** *мультикультурализм, мультикультурализм Азербайджана, библиотечное среда.*

## ILHAM ALIYEV: THE IDEAS OF MULTICULTURALISM AND LIBRARIES

ALIZADE H.A.

***SUMMARY***

*The article discusses the policy of multiculturalism conducted by the President of the Republic of Azerbaijan Ilham Aliyev, and the duties of libraries in this area.*

***Key words:*** *multikulturalism, multiculturalism of azerbaijanizm, library environment*